# “Bu il Azərbaycan uğurla inkişaf edəcək”

***2019-cu ilin yekunlarına həsr olunmuş müşavirədə dövlət başçımız ötən ilin uğurlarından danışarkən, sosial sahədə görülən işlərə də toxundu, qazanılan nailiyyətləri diqqətə çatdırdı. Büdcəyə proqnozdan əlavə daxil olan vəsaitlə çox geniş sosial paketin əhaliyə təqdim edilməsini vurğuladı. Bildirdi ki, həm müasir Azərbaycanın tarixində, həm də MDB məkanında bu dərəcədə böyük sosial paket bu günə qədər reallaşmamışdır. Prezident sovet vaxtından qalmış və bir növ dondurulmuş əmanətlərin də vətəndaşlara ən məqbul prinsip əsasında, ən məqbul əmsalla qaytarıldığını xatırlatdı və bu sahədə də MDB məkanında birinci olduğumuzu diqqətə çatdırdı. Dövlət başçısı dedi: “Keçən il aparılmış islahatlar nəticəsində biz əldə edilmiş əlavə gəlirləri, ilk növbədə, məhz sosial sahəyə yönəltdik. Mən keçən ilin əvvəlində bunu bəyan etmişdim. Demişdim ki, yığılacaq bütün əlavə vəsait sosial sahəyə yönəldiləcəkdir və bunu da etdik. Hər zaman olduğu kimi, sözümüzün üstündə dururuq”.***



Prezident nitqində ölkədə daha çox ailənin faydalandığı özünüməşğulluq proqramı ilə bağlı fikirlərini də bildirdi. Qeyd etdi ki, dünya praktikasında verilən vəsait nəticəsində təqribən 50 faiz uğurlu layihələr baş tutur: “Ona görə biz elə etməliyik ki, Azərbaycanda bu uğurlu layihələrin sayı və faizi daha da artıq olsun. Dünya Bankı mənim təklifimlə bu proqrama qoşulubdur”.

Qeyd edək ki, dövlətimiz tərəfindən aztəminatlı ailələrin sosial müdafiəsinin gücləndirilməsi ilə yanaşı, onların aktiv əməyə cəlb edilməsinə, məşğulluğunun təmin olunmasına xüsusi diqqət yetirilir. Bu baxımdan Prezident İlham Əliyevin 2017-ci ildə imzaladığı “Əhalinin özünüməşğulluğunun təmin olunması sahəsində əlavə tədbirlər haqqında” sərəncam dövlət məşğulluq siyasətində keyfiyyətcə yeni bir mərhələ açmışdır. Sənəd özünüməşğulluq fəaliyyəti ilə işsiz və işaxtaran şəxslərin ailə bizneslərini qurmalarına, əmək potensiallarının reallaşdırılması yolu ilə gəlirlərini artırmalarına, həmçinin kiçik və orta sahibkarlığın inkişafına xidmət edir.

Dövlət başçısının tapşırığı ilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən həyata keçirilən özünüməşğulluq proqramı ölkəmizdə sosial müdafiə siyasətində passiv tədbirlərdən aktiv tədbirlərə keçidin təmin olunmasına imkan verib. Respublikamızın hər yerində özünüməşğulluq proqramı çərçivəsində aktivlərlə təmin edilmiş vətəndaşlar öz ailə təsərrüfatlarını və bizneslərini qurmağa nail olublar. Qeyd edək ki, 2018-ci ildə respublikada 7 min nəfərdən çox vətəndaş özünüməşğulluq proqramına cəlb edilmişdi. 2019-cu ildə isə daha çox vətəndaşın layihədən yararlanması nəzərdə tutuldu. Proqrama cəlb edilən işsiz və işaxtaranlar sırasında əlilliyi olanlara, aztəminatlı, çoxuşaqlı, şəhid, məcburi köçkün, ünvanlı dövlət sosial yardımı alan ailələrin üzvlərinə, penitensiar müəssisələrdə cəza çəkməkdən azad olunanlara və digər həssas qruplara üstünlük verildi.

Proqram çərçivəsində nazirlik tərəfindən verilən aktivlər hesabına respublikamızın şəhər və rayonlarında vətəndaşlar aktivlərlə təmin edilərək kiçik ailə təsərrüfatlarını yaradıblar. Həmin təsərrüfatların 84 faizi kənd təsərrüfatı (maldarlıq, quşçuluq, əkinçilik, arıçılıq, bağçılıq, istixana yaratma və s.), qalan hissəsi xidmət və istehsal sahələrini əhatə edir. Proqramla, həmçinin xalçaçılıq, misgərlik və s. üzrə də ailə təsərrüfatları yaradılıb.

Aztəminatlı ailələrin fərdi təsərrüfatlara sahib olmaları onların dövlət yardımından asılılığının aradan qalxmasına, öz zəhmətləri hesabına ailə gəlirlərini artırmalarına və sahibkarlığa çıxış imkanı qazanmalarına, ölkədə kiçik ailə biznesinin genişlənməsinə şərait yaradıb. Eyni zamanda, bu təsərrüfatlar ölkədə qeyri-neft sektorunun inkişafına əlavə dəstək olmaqla, həmin sektorda məhsul istehsalının artımını da stimullaşdırıb. Verilmiş aktivlərdən səmərəli şəkildə istifadə etməklə aztəminatlı ailələrin öz kiçik ailə təsərrüflarını gözlənilən səviyyədə, uğurla qurmaları və bu təsərrüfatları daim inkişaf etdirməyə, genişləndirməyə çalışmaları özünüməşğulluq proqramının icrası sahəsində müsbət təcrübənin formalaşdığını deməyə əsas yaradıb.

Müşavirədə Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev məlumat verdi ki, özünüməşğulluq proqramı dövlət başçısının tapşırığına uyğun olaraq daha da genişləndirilib. 2019-cu ildə proqrama cəlb edilənlər müvafiq təlimləri başa vurublar, öz biznes planlarını uğurla müdafiə ediblər və artıq əksəriyyəti aktivlərini alıb. Nazir dedi: “Aktivlərin paylanma prosesi davam edir və ayın sonuna qədər qalanları da aktivlərlə tam şəkildə təmin olunacaqdır. BMT İnkişaf Proqramının, eyni zamanda, Heydər Əliyev Fondunun Regional İnkişaf İctimai Birliyinin bu proqrama qoşulması, əlavə 500 nəfərin aktivlərlə təmin olunması proseduru məhz bu iki layihə çərçivəsində icra olunur. Bu proqramın da genişləndirilməsinə, Dünya Bankı ilə danışıqların yekunlaşdırılmasına dair sizin tapşırıqlarınız olmuşdur. Biz artıq Dünya Bankı ilə ilkin müzakirəni yekunlaşdırmışıq”.

Ölkəmizdə özünüməşğulluq proqramına cəlb edilən şəxslərin sayı artıq 10 min 600 nəfərə çatır. Onlardan 2345 nəfəri əlilliyi olan şəxslər, 1835 nəfəri məcburi köçkünlər, 479 nəfəri ünvanlı sosial yardım alanlar, 257 nəfəri şəhid ailəsi üzvləri, 133 nəfəri isə cəzaçəkmə müəssisəsindən azad edilənlərdir. Proqram iştirakçılarından böyük əksəriyyəti artıq biznes planlarına uyğun mal və materiallar formasında aktivlərlə təmin edilib.

Özünüməşğulluq proqramının həyata keçirilməsi paytaxtda və bölgələrdə sakinlərin kasıblıqdan kiçik sahibkarlığa keçidinə körpüdür. Bu proqramın reallaşması ölkə vətəndaşlarının rifahının yüksəlməsinə, firavanlığına xidmət edir. Müşavirənin sonunda Prezident İlham Əliyev bu il də Azərbaycanın uğurla inkişaf edəcəyinə, 2020-ci ildə Azərbaycanın daha güclü dövlətə çevriləcəyinə əmin olduğunu bildirdi.

**Arzu BAĞIROVA,**
**“Regional Hüquqi və İqtisadi Maarifləndirmə” İctimai Birliyinin sədri**